# İnsan özü müəllim ola biləcəyini hiss etməli, buna inanmalıdır



## Azərbaycan Gənc Müəllimlər Assosiasiyası şəbəkəsini genişləndirir

**Ruhiyyə DAŞSALAHLI**

Ölkə müəllimləri təşkilatlanır. Azərbaycan müəllimlərinin XV qurultayında irəli sürülən təşəbbüsü inkişaf etdirərək Azərbaycan Gənc Müəllimlər Assosiasiyasını yaradan gənc müəllimlərimiz öz şəbəkəsini genişləndirir. Artıq İmişli rayonundan olan gənc müəllimlər də bu şəbəkəyə qoşulub.

Şəbəkəyə yeni qoşulan İmişli rayonunun gənc müəllimləri Təhsil nazirinin müavini Firudin Qurbanovla görüşüblər. Görüşdə gənc müəllimlərə son illərdə ölkəmizdə gedən iqtisadi inkişaf prosesindən danışan F.Qurbanov təhsil sahəsində həyata keçirilən islahatların bu inkişafın nəticəsi olduğunu deyib. Müəllimlik peşəsinə olan marağın ildən-ilə artdığına diqqət çəkən nazir müavini gənc müəllimlərə tövsiyələr verib, müəllimliyin önəmini vurğulayıb: “Hər kəs müəllim ola bilməz. Müəllim olmaq üçün çox böyük keyfiyyətlər tələb olunur. İlk növbədə insan özü müəllim ola biləcəyini hiss etməli, buna inanmalıdır. Müəllimdən yüksək peşəkarlıq, yüksək mədəniyyət, öyrənməyi öyrətmək həvəsi və bacarığı, şagirdlərə hörmətlə yanaşmaq və onları sevmək tələb olunur”. F.Qurbanovun fikrincə, müəllim biganə olmamalı, şagirdlərə qarşı həssas yanaşmalıdır: “Müəllimlik çox çətin, ancaq həm də şərəflidir. Yaxşı-yaxşı düşünün, görün, siz bu vəzifənin öhdəsindən gələ biləcəksinizmi? Öz üzərinizdə çalışın. Çünki rəqabət mühitidir və tezliklə çox yüksək hazırlıqlı müəllimlərlə rəqabət aparmalı olacaqsınız. Fəal, təşəbbüskar olun. Komanda mühitində işləmək bacarığı formalaşdırın”.

F.Qurbanov müəllimlərin təhsildəki yeniliklərdən məlumatlı olmasının, fəal müəllimlər şəbəkəsinin formalaşdırılmasının və bu istiqamətdə Assosiasiyanın yaradılmasının əhəmiyyətini vurğulayıb.

Görüşlə bağlı təəssüratlarını bölüşən gənc müəllimlər üçün nazir müavinindən müəllimlik, onun tələbləri ilə bağlı eşitdikləri fikirlər görəcəkləri iş qədər əhəmiyyətli olub.

İmişli rayon Əliqulular kənd tam orta məktəbin ingilis dili müəllimi Könül Əmirova inanır ki, bu görüş gənc müəllimlərin gələcək fəaliyyətində böyük stimul olacaq: “Düzü, düşünürdüm ki, rəsmi, ciddi, çox gərgin bir görüş olacaq. Firudin müəllimin maraqlı fikirləri oldu. Mən də onun verdiyi tapşırıqlardan öz qeydlərimi götürdüm. Düşünürəm ki, bir gün mən də öz uğurlu fəaliyyətimlə təhsilimizə töhfə verəcəyəm”.

İmişlidəki 2 nömrəli tam orta məktəbin rus dili müəllimi Şəlalə Rəhimova isə bildirib ki, Firudin müəllim onda çox böyük həvəs yaradıb: “Müəllimlik peşəsini əvvəldən sevirəm, sevərək tədris edirəm dərslərimi. Bu peşəyə bu gün verilən dəyər bizi daha da ruhlandırır. Amma fəaliyyətimizi sadəcə müəllimliklə məhdudlaşdırmaq da inkişafdan geri qalmaqdır. Hesab edirəm ki, ayrı-ayrı rayonların müəllimləri ilə əməkdaşlıq, hər hansı məsələ ətrafında fikir mübadiləsi bizim üçün əhəmiyyətli nəticələr verəcək. Həm peşəkarlığımız artacaq, həm də daha çox şey öyrənəcəyik. Müəllim hər zaman biliyini, informasiyasını yeniləməlidir. Əks halda, təhsil inkişaf etməz”.

Xatırladaq ki, qarşısına istedadlı gənc müəllimləri aşkara çıxarmaq, onların gələcək inkişafı üçün şərait yaratmaq, daha məhsuldar işləməyə həvəsləndirmək, gənc müəllimlərin fəaliyyətini daim diqqət mərkəzində saxlamaq kimi vəzifələr götürən Gənc Müəllimlər Assosiasiyası yerli icra orqanları və digər aidiyyəti təşkilatların hesabına müvafiq tədbirlər təşkil edəcək. Xarici ölkələrlə təcrübə mübadiləsi ilə əlaqədar tədris səfərlərinin olacağı, zonalar üzrə, eləcə də ölkə səviyyəsində elmi-praktik konfranslar və pedaqoji mühazirələr keçirəcəyi də nəzərdə tutulub.

Azərbaycan müəllimi.- 2019.- 1 noyabr. S. 5.